**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ GƏNCƏVİ ADINA**
**MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİ**

# R İ S A L Ə

## *Araşdırmalar toplusu*

## № 11

**Bakı – "Elm və Təhsil" – 2015**

***Azərbaycan Milli Elmlər Akademiyası***
***Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi***
***Elmi Şurasının 16 sentyabr 2015-ci il (protokol №7)***
***qərarı ilə nəşr edilir***

***Redaktor:*** AMEA-nın həqiqi üzvü,
filologiya elmləri doktoru,
professor
**Rafael HÜSEYNOV**

**Redaksiya heyəti:**
**Kamil Allahyarov, filologiya elmləri doktoru, professor**
**Xatirə Başirli, filologiya elmləri doktoru**
**Şəfəq Əlibəyli, filologiya elmləri doktoru**
**Aida Qasımova, filologiya elmləri doktoru, professor**
**Nəzmiyyə Yigitoğlu, filologiya üzrə fəlsəfə doktoru**

**Risalə. Araşdırmalar toplusu. 11-ci cild**
**Bakı, "Elm və Təhsil" nəşriyyatı, 2015. – 232 səh.**

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi əməkdaşlarının elmi araşdırmalarından ibarət "Risalə" toplusu ildə bir dəfə nəşr edilir və məzmunu etibarilə klassik, müasir ədəbiyyat, fəlsəfə, mədəniyyət problemləri, həmçinin muzeyşünaslıq məsələlərini əhatə edir. Toplunun 11-ci cildi böyük Azərbaycan şairi Bəxtiyar Vahabzadənin 90 illiyi ilə əlaqədar muzeyin keçirdiyi respublika konfransının materialları əsasında tərtib edilmişdir. Konfransda əsas mövzu bilavasitə Bəxtiyar Vahabzadənin yaradıcılığı olsa da, müxtəlif bölmələrdə Azərbaycan ədəbiyyatının klassik və müasir dövrünə aid müxtəlif problemləri əhatə edən məruzələr də dinlənilmişdir. Redaksiya heyətinin təqdimatı və Elmi Şuranın qərarına əsasən Bəxtiyar Vahabzadəyə aid məqalələrin ən uğurluları seçilərək ayrıca bölmədə yerləşdirilmişdir. Toplunun ikinci hissəsində isə istər digər mövzular, istərsə də B.Vahabzadə yaradıcılığına aid tezislərin ən diqqətəlayiqləri dərc edilir.

Məqalələrin bir hissəsi ənənəvi olaraq muzey əməkdaşlarına məxsus olsa da, bu cildimizdə kənar elmi müəssisələrdən olan müəlliflərin də məqalələri yer almışdır.

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi əməkdaşlarının, bir növ, məsul yaradıcılıq laboratoriyası olan "Risalə" mütəxəssislər, ali məktəb tələbələri, eləcə də Azərbaycan ədəbiyyatı və mədəniyyətinin problemləri ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur. "Risalə" araşdırmalar toplusu Nizami muzeyinin ərsəyə gətirdiyi özünəməxsus tədqiqat topluları "Xəmsə"sinə daxil olan "Şərq" (Tərcümə toplusu), "Məclis" (Mərasimlər toplusu), "Xəzinə" (Kataloqlar toplusu), "Qaynaq" (Mənbələr toplusu) məcmuələr silsiləsindəndir və Ali Attestasiya Komissiyasının təsdiq etdiyi nəşrlər sırasında yer almaqdadır.

**© AMEA Nizami Gəncəvi adına**
**Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**© 2015**

**Gülşən Kamal qızı MEHDİZADƏ**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**mehdizade.gulshen@mail.ru**

**Açar sözlər:** Motivasiya, məqsəd, kompozisiya, metod, hazırlıq
**Ключевые слова:** Мотивация, цель, композиция, метод, поставка
**Key Words:** motivisation, aim, composision, method, stationary

# İBTİDAİ SİNİFLƏRDƏ MİLLİ VƏTƏNPƏRVƏRLİK HİSSİNİN AŞILANMASI

***(Bəxtiyar Vahabzadənin "Ana dili" şeiri əsasında)***

Ümummilli lider Heydər Əliyev dil haqqında demişdir: "Xalqı xalq edən, milləti millət edən onun ana dilidir". Layiqli ana dili olmayan, ana dilindən istifadə edə bilməyən, ana dilindən bəhrələnə bilməyən xalq millət, millət xalq ola bilməz. Bizim xoşbəxtliyimiz ondan ibarətdir ki, Şərq ölkəsinin əsarəti altında olduğumuz zamanda biz dilimizi yaşatmışıq. Nəinki yaşatmışıq, onu inkişaf etdirmişik. Bu, xalqımızın, xüsusən bizim söz ustalarımızın, ədəbiyyatçıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin ən böyük nailiyyətidir.

Belə dahi ədəbiyyatçılarımızdan, söz ustadlarımızdan biri də Bəxtiyar Vahabzadədir. Xalqına, vətəninə sonsuz məhəbbəti olan hər bir şəxsin neçə dil bilməsi ilə yanaşı, ana dilinə yiyələnməsi vacib vətəndaşlıq borcudur. Bu baxımdan məktəblərimizdə ana dilinə məhəbbət və hörmət aşılamaq ibtidai sinif müəllimlərinin qarşısında duran mühüm vəzifələrdən biridir. Bu işdə 3-cü sinif dərsliyinə salınmış Bəxtiyar Vahabzadənin 1954-cü ildə qələmə almış olduğu "Ana dili" şeiri məqsədə çatmaq üçün əvəzedilməz bəhrədir.

Dərslikdə müxtəsər şəkildə təqdim olunmuş şeirin orijinal variantını oxuyub şagirdlərin diqqətinə çatdırmağı hər bir müəllim özünə peşə borcu hesab etməklə, şairin qəlbindəki vətən sevgisini, vətən övladlarına öyüd-nəsihətini tam şəkildə çatdırmış olar. Xalqımızın sovet dönəmində maddi və mənəvi sərvətlərinə olan təzyiq dövrün yazarlarını nəinki narahat etmiş, o dönəmin ağır siyasi məşəqqətinə rəğmən xalqına müraciət edərək əcdadlarımızdan bizə miras qalan dilimizin saflığının qorunmasının keşiyində durmağı hər kəsə müracət edərək tövsiyə etmişdir. Təbii ki, dilimizin keşiyində durmaq ilk növbədə xalqın ziyalı təbəqəsinin üzərinə düşən vəzifədir. Məhz buna görə də şair müraciətində yazır:

**Ey öz doğma dilində danışmağı ar bilən,**
**Bunu iftixar bilən**
**Modalı ədabazlar,**
**Qəlbinizi oxşamır qoşmalar, telli sazlar.**
**Qoy bunlar mənim olsun.**
**Ancaq Vətən çörəyi,**
**Bir də ana ürəyi**
**Sizlərə qənim olsun.**

Şeir şagirdlərin milli-vətənpərvərlik ruhda tərbiyə olunmasında, öz doğma dillərinə məhəbbət hissinin aşılanmasında, yetişməkdə olan nəslin şəxsiyyət kimi formalaşmasında müstəsna rol oynayır.

Ana dilini bilməyənlər, Bəxtiyarın fikrincə, milli düşüncə və vətənpərvərlik baxımından da şərəfsiz olur, onlar üçün vətən məfhumu şəxsi mənzili ilə, millət məfhumu isə qohum-qardaşı ilə əvəzlənir, milli dinini bilməyən insan millətin ruhuna, mənəviyyatına və tarixinə yaddır və millətin övladı deyil [1, 13].

Bəxtiyar Vahabzadə ana dilimizin təmizliyinə və gözəlliyinə riayət etməyi mənəvi zənginlik və kamillik kimi dəyərləndirir, təfəkkür mədəniyyətinin, intellektual qabiliyyətinin yüksək göstəricisi kimi ön plana çəkir. Bəxtiyar Vahabzadəyə görə, dil xalqın malı və sərvətidir. O yazır: "Dil xalqındır. Ona görə də dilin gözəlliyi keşiyində yalnız alim və yazıçılar, filoloq və jurnalistlər deyil, bütün xalq durmalıdır. Bu, hər birimizin vətəndaşlıq borcudur. Bu, ümumxalq işi, dövlət işidir. Ata-babalarımızdan miras aldığımız ana dilimizi göz bəbəyimiz kimi qorumaq, onu cilalaya-cilalaya, öz dadı-tamı və təmizliyi ilə gələcək nəsillərə təhvil vermək müqəddəs borcumuzdur" [3, 181].

Ana dilinin əsl mahiyyətini və mənasını Bəxtiyar daha nikbin obrazlarda görür: əcdadlarımızın bizə miras verdiyi qiymətli xəzinə, bütün vətən övladlarını qohum edən və əhd-peyman yaradan, insanı ana vətəninə, dününinə, bugününə, sabahına bağlayan, insanın dərd və sevincini dodağında çağladan, qürbəti də vətən edən, vətən ruhunu nəsildən-nəslə keçirən, insan ruhunu cingildədən, keçmişdən gələcəyə körpü salan, insanın səsinə səs verən, millətin varlığını yer üzünə göstərən qiymətli sərvət, millətin vəhdəti, insanın ilk dərsliyi, laylamızın təranəsi, qılıncda ovxarlanan söz kəsəri, vuruşlarda qəhrəman, barışlarda həlim, ümman, fərman, qılıncdan od alan, möhtəşəm, nurlu, insanın ad-sanı, namusu, vicdanı, ruhu, eşqi, canı, bayrağı, şərəfi, şöhrəti, qeyrəti... ana dili... belədir Bəxtiyar üçün ana dili!

III sinif dərsliyində təqdim edilmiş B.Vahabzadənin "Ana dili" şeiri əsasında

**Mövzu:** B.Vahabzadənin "Ana dili" şeirinin məzmunu və təhlili

**Məqsəd:** Şagirdlərdə ana dilinə və vətənə məhəbbət hissi aşılamaq

**Standart: 2.2.5., 2.2.8., 2.2.9., 4.1.9., 2.2.4.**

**Mövzu:** B.Vahabzadənin "Ana dili" şeirinin məzmunu və təhlili

**Standart: 2.2.5., 2.2.8., 2.2.9., 4.1.9., 2.2.4.**

a) Şeirdə hansı hisslərdən söhbət açıldığını əsaslandıraraq izah edir.

b) Şeirin kompozisiyasını müşahidə edir və onun necə qurulduğunu şərh edir.

c) Ana dilinin şairdə doğurduğu hissləri düzgün qiymətləndirir.

d) Şeirdən çıxan nəticəni düzgün dəyərləndirir və öz həyati təəssüratları ilə onu zənginləşdirir.

e) Şeiri ifadəli şəkildə oxumaq bacarığını nümayiş etdirir.

Ən ümdə vəzifə: vətənpərvərlik ruhu aşılanır.

**Üsul:** beyin həmləsi, şaxələndirmə

**Dərsin tipi:** induktiv

**Təchizat:** iş vərəqləri, Y.Rzazadənin "Şirin dil" melodiyası, dərslik

**Dərsin gedişi:**

1. **Motivasiya.** Y.Rzazadənin "Şirin dil" melodiyası dinlənilir.

**Sual:**

Melodiya xoşunuza gəldi? (...)
O sizdə hansı hissləri yaratdı? (...)
Melodiya nəyə həsr olunmuşdur? (...)
Necə bilirsiz, bu gün biz nə barədə söhbət açacağıq? (...)
Biz bu gün bu gözəllikləri sizinlə hansı dildə təqdim etdik? (...)
Təşəkkür edirəm. Siz düzgün buyurdunuz. Bugünkü dərsimizdə ana dilindən söhbət açacağıq.
Mövzu aşağıdakı şəkildə lövhəyə qeyd olunur:

**B.Vahabzadə. "Ana dili" şeiri.**

**Tədqiqat sualı:**

Sizcə, "Ana dili" şeirində şair ana dili ilə bağlı nə kimi fikir və düşüncələrini ifadə edə bilərdi?
Müəllim tədqiqat sualını mövzunun altında qeyd edir.
Sonra suala verilən ilkin cavabları (şagirdlərin ilkin fərziyyələrini) qısa şəkildə lövhəyə qeyd edir.

2. **Tədqiqatın aparılması mərhələsi.**

**Suallar**:

Dediklərinizin doğruluğunu yoxlamaq üçün biz nə etməliyik? (...)
Düzgün buyurdunuz. Gəlin axtarışa çıxaq, görək sizin göstərdiyiniz məsələlər şeirdə nə səviyyədə əks olunmuşdur. Əvvəlcə 5 qrupa bölünürük (hər qrupa bir tapşırıq təqdim olunur). İndi isə aşağıdakı tapşırıqları yerinə yetirək:

1-ci qrup: – Şeiri ifadəli şəkildə oxuyun. Birinci bənddə nədən danışıldığını müəyyən edin.
2-ci qrup: – Şeirin bəndlərini tutuşdurun və onlarda ana dili ilə bağlı hissələrin necə təhlil edildiyini qeyd edin.
3-cü qrup: – Şeirin məzmununa uyğun olaraq onu necə davam etdirə bilərdiniz?
4-cü qrup: – Sonuncu bənddə nədən danışıldığını qeyd edin. Şeir sizdə nə kimi vətənpərvərlik hissləri oyadır?
5-ci qrup: – Bəndlərdə bizə aşılanacaq düşüncənin necə qurulduğunu müəyyən edin və şeiri ifadəli şəkildə oxuya hazırlayın.

Tapşırığın icrasına 5 dəqiqə vaxt verilir. Şagirdlər qoyulmuş vaxt müddətində tapşırığın cavabını iş vərəqlərində qeyd edirlər.

**3. Məlumat mübadiləsi mərhələsi.** Bu mərhələdə qruplar öz tədqiqatlarının nəticələri ilə sinfi tanış etməyə başlayırlar. Hər qrupa təqdimat üçün 2 dəqiqə vaxt ayrılır. Qrupun təmsilçisi iş vərəqlərində qeyd olunan məlumatı sinfə təqdim edir. Əvvəlcə birinci qrup gəlib öz işlərini təqdim edir. Sonra ikinci, üçüncü, dördüncü və beşinci qruplar təqdimatlarını edirlər.

**4. Məlumatın müzakirəsi və təşkili.** Müəllim şagirdlərin diqqətini lövhəyə yapışdırılmış iş vərəqlərinə yönəldir. Bildirir ki, gəlin indi birlikdə təqdimatları nəzərdən keçirək və orada qeyd olunan fikirləri müzakirə edərək ümumiləşdirək.

**Müzakirə üçün suallar:**

a) Birinci bənddə ilk iki misralarda şair nəyi nəzərdə tutur? (...) Bəs sonrakı misralarda bəstəkar və şair ana dili dedikdə nəyə işarə edir? (...) Siz buna necə dəyər verə bilərsiniz? (...)

**Dil açanda ilk dəfə ana söyləyirik biz,**
**“Ana dili” adlanır bizim ilk dərsliyimiz.**
**İlk mahnımız laylanı anamız öz südüylə**
**İçirir ruhumuza bu dildə gilə-gilə.**

b) Bu misralarda şairin ana dilinə münasibəti hansı sözlərlə daha qabarıq ifadə olunur? (...) Şair sonuncu misralarda nəyi bizə çatdırmaq istəyir? (...)

**Bu dil – bizim ruhumuz, eşqimiz, canımızdır,**
**Bu dil – bir-birimizlə əhdi-peymanımızdır,**
**Bu dil – tanıtmış bizə bu dünyada hər şeyi.**
**Bu dil – əcdadımızın bizə qoyub getdiyi**
**Ən qiymətli mirasdır, onu gözlərimiztək**
**Qoruyub, nəsillərə biz də hədiyyə verək.**

c) “Mənim adım, sanımsan, namusum, vicdanımsan” dedikdə nə nəzərdə tutulur? O biri misralarda şair nəyə işarə vurur? (...) Misraların məzmunundan hansı nəticəni çıxarmaq mümkündür? (...)
d) Şair sonuncu bənddə hansı məsələdə tərəddüdünü və qənaətini ifadə edir? (...) Gəlin bir anlığa fikirləşək. Nə üçün şair şeirinə “Ana dili” başlığı vermişdir? (...) Biz bu şeirdən hansı hissləri əxz edə bilərik? (...)
e) Gəlin fikirlərimizi ümumiləşdirək: bu şeirdə ana dilinin hansı üstün keyfiyyətləri və vətənə bağlılığı vurğulanıb? (...)

**5. Nəticələrin çıxarılması.** Ümumiləşdirilmiş fikirlə ilkin fərziyyəni müqayisə edərək nəticə çıxaraq.

**6. Yaradıcı tətbiqetmə.** Tapşırıq:
a) Siz şairin yerinə olsaydınız, bu şeiri necə davam etdirərdiniz?
b) Gəlin klaster üsulu ilə ana dili haqqında ən yaxsi sözlərimizi qeyd edək.

**7. Refleksiya.** Biz bu biliklərə necə sahib çıxdıq.

**8. Formativ qiymətləndirmə sxemi:**

| № | Meyarlar | Qiymətlər | | | |
|---|---|---|---|---|---|
| | | 2 | 3 | 4 | 5 |
| 1. | Şeirdən aldığı hissləri əsaslanaraq izah etməsi | | | | |
| 2. | Şeirin qurulmasını, kompozisiyasını şərh edir | | | | |
| 3. | Ana dilinin şairdə oyatdığı hissləri düzgün dəyərləndirir | | | | |
| 4. | Nəticənin düzgün qiymətləndirilməsi | | | | |
| 5. | İfadəli oxu bacarığının | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | nümayiş etdirilməsi | | | | |
| 6. | Əməkdaşlıq | | | | |

9. **Ev tapşırığı:** Şeiri əzbərləyin [2, 147].

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:


1. Həsənov H.Ə. Azərbaycan Bəxtiyarı, yaxud "Gülüstan"dan "Şəhidlər"ə gedən yol! Bakı: Apostrof
2. İsmayılov R., Orucova G., Cəfərova D., Zahid Xəlil. Azərbaycan dili (3-cü sinif üçün dərslik) Bakı: Altun Kitab, 2014, 208 s. "Ana dili", 147 s.
3. Vahabzadə B. Dildə təbiilik və gözəllik. Sənətkar və zaman. Bakı: Gənclik, 1976


***Gulshan Kamal gizi Mehdizade***

**Inokulating with national patriotism in primary schools**
***("Mother longue" by Bakhtiyar Vahabzadeh)***
**S u m m a r y**

In this article the poet's love to his mother tongue, the power of our language have been described very attentively and the teaching of the patriotism to the pupils is presented as one of the main aims for the teacher by the author s.

***Гюльшан Кямал кызы Мехтизаде***

**Прививание в начальнах классах чувства национального патриотизма**
***(На основании стихотворения Б.Вахабзаде «Родной язык»)***
**Р е з ю м е**

В стихотворении поэт умело выразил свое благоволение к родному языку и могущество родного языка. Поэт так же, ставит главной целью педагога прививать ученикам чувство патриотизма.

## KİTABIN İÇİNDƏKİLƏR

Rafael HÜSEYNOV. Bəxtiyar Vahabzadənin arzuladığı bəxtiyar gələcək........4

## BÖLMƏLƏR:

## BÖLMƏ 1: BƏXTİYAR VAHABZADƏ VƏ AZƏRBAYCAN ƏDƏBİYYATINDA VƏTƏNPƏRVƏRLİK MÖVZUSU
## BÖLMƏ 2: BƏXTİYAR VAHABZADƏ VƏ AZƏRBAYCAN DRAMATURGİYASINDA TARİXİLİK

## MƏQALƏLƏR

Kamil ŞƏRİFOV. Süleyman əl-İsanın yaradıcılığının Azərbaycan poeziyası ilə uzlaşan məqamları........31
Aynurə PAŞAYEVA. Bəxtiyar Vahabzadə publisistikasında milli özünüdərk........38
Bayram GÜNDOĞDU. Türk dünyasının şairi Bəxtiyar Vahabzadə........43
Dilarə ƏLİYEVA. Bəxtiyar Vahabzadə və Azərbaycan dramaturgiyasında tarixilik........49
Sakibə ƏLƏSGƏROVA. Azadlıq və istiqlal şairləri: Bəxtiyar Vahabzadə və Sönməz........53
Gülşən MEHDİZADƏ. İbtidai siniflərdə milli vətənpərvərlik hissinin aşılanması........59
Yeganə HÜSEYNOVA. Bəxtiyar Vahabzadə poemalarında sosial mühitin təsviri........64
Reyhan MƏCİDOVA. Poeziyamızın günəşi öz misralarında........70
Aida MİRZƏYEVA. Bəxtiyar Vahabzadənin poetik yaradıcılığında vətən sevgisinin tərənnümü........76
Natavan MUSTAFAYEVA. Bəxtiyar Vahabzadə yaradıcılığında türkçülük.. 81
Nəzmiyyə YİGİTOĞLU. Azərbaycan poeziyasındakı "altmışıncılar" nəslində dissident düşüncə – Bəxtiyar Vahabzadədən Vaqif Səmədoğluyadək........86
Türkan QƏDİROVA. Bəxtiyar Vahabzadə poeziyasında ana dilinə münasibət........92
Roza EYVAZOVA. Bəxtiyar Vahabzadə yaradıcılığına bir baxış........97
Tomiris BABANLI. Bəxtiyar Vahabzadə poeziyası ingilis tərcümələrində ..102
Тойраханум ГУСЕЙНОВА. Национальное и общечеловеческое в поэзии Бахтияра Вагабзаде........109
Nuranə ƏSƏDULLAYEVA. Bəxtiyar Vahabzadə poeziyasında ədəbiyyat və sənət məsələləri........113